# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 145** **Bakı şəhəri, 4 may 2023-cü il**

***"Tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısı və onların tətbiqi halları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 304 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 304 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1128; 2015, № 10, maddə 1209; 2021, № 2, maddə 194) ilə təsdiq edilmiş "Tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısı və onların tətbiqi halları"nın 2-ci hissəsində "və tabeliyindəki" sözləri ", tabeliyindəki" sözü ilə əvəz edilsin və həmin hissəyə "Agentliyi" sözündən sonra ", Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***